# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 254/3** **10 sentyabr 2014-cü il**

**Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən sərbəst auditorlar tərəfindən 2014-cü ilin II rübü üzrə fəaliyyətlərinə dair təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmalın hazırlanması barədə**

Auditorlar Palatasının 2014-2016–cı illər üzrə iş planının «Sərbəst auditorlar tərəfindən təqdim edilmiş 2014-cü il üzrə gündəliklərin təhlili və tövsiyələrin hazırlanması» barədə 1.12-ci bəndinə uyğun olaraq, Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış «Sərbəst auditorlar tərəfindən 2014-cü ilin II rübü üzrə təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmal» barədə məruzəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən hazırlanmış «Sərbəst auditorlar tərəfindən 2014-cü ilin II rübü üzrə təqdim etdikləri gündəliklərin təhlili və müvafiq icmal» nəzərə alınsın (əlavə olunur).

**2.** Sərbəst auditorlar tərəfindən daxil olan gündəliklərin daha ətraflı təhlilinin aparılması və zəruri əməli tövsiyələrin hazırlanması məqsədi ilə Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov, Şura yanında Metodiki və Qanunvericilik və hüquqi məsələlər üzrə Komitələri ilə birlikdə müvafiq metodik göstərişlərin hazırlanıb 3 (üç) ay müddətinə təqdim olunması təmin edilsin;

**3.** Sərbəst auditorlara tapşırılsın ki, gündəlikləri vaxtında və keyfiyyətli tərtib edərək Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) təqdim etsinlər;

**4.** Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**